# İstinad göstərmə qaydaları

# Elmi istinad üslubları

Akademik yazı prosesində istifadə olunan mənbələrə həm mətn daxilində, həm də ədəbiyyat siyahısında istinad edilməsi zəruri hesab olunur. Bu istinadların yazılma forması isə elmi-tədqiqatın aid olduğu elm sahəsindən asılı olaraq müxtəlif istinad üslubları çərçivəsində tənzimlənir.

# Elmi istinad üslubları




**MLA** - əsasən humanitar sahələrdə (ədəbiyyat, dillər və s.) istifadə olunur.

**APA** - əsasən sosial elmlərdə (psixologiya, təhsil, iqtisadiyyat və s.) istifadə olunur.

**Chicago** - əsasən tarix və incəsənət kimi sahələrdə istifadə olunur.

**EEE** - əsasən texniki sahələrdə (mühəndislik, kompüter elmləri) istifadə olunur.

**CSE** - əsasən təbiət elmlərində (biologiya, kimya və s.) istifadə olunur.

# *APA elmi istinad üslubu*

Təhsil sahəsində ən çox istifadə olunan elmi istinad üslubu APA üslubudur. Müxtəlif dövrlərdə APA qaydaları dövri olaraq yenilənir. Ən son istifadə olunan versiya isə ***APA 7*** qaydalarıdır. Lakin nəzərə almaq lazımdır ki, istinad qaydaları elmi jurnalın tələbindən asılı olaraq dəyişə bilər.

İstinadlar həm ***mətn daxilində***, həm də məqalənin sonunda təqdim olunan ***ədəbiyyat siyahısında*** göstərilməlidir.

## ***APA 7 mətndaxili istinad göstərmə qaydaları***

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

Tədqiqatçı hər hansı bir mənbədən istifadə etdikdə məlumatları ya **parafraz** edərək, ya da **birbaşa sitat** şəklində təqdim edə bilər.

**Parafraz** fikrin əsas məzmununu qorumaqla, onu tədqiqatçının öz sözləriylə yenidən ifadə etməsi deməkdir. Bu zaman istinad cümlənin əvvəlində və ya sonunda verilə bilər.

**Nümunələr:**

- Daha çox müsbət təcrübəyə məruz qalma bu qoruyucu funksiyanı təmin edən əsas amildir (Johnson və dig., 2005).
- Johnson və digərləri (2005) hesab edir ki, daha çox müsbət təcrübəyə məruz qalma bu qoruyucu funksiyanı təmin edən əsas amildir.

- Exposure to more positive experiences is the key factor to provide this protective function (Johnson et al., 2005).
- Johnson et al. (2005) assumed that exposure to more positive experiences is the key factor to provide this protective function.

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

- **Birbaşa sitat** başqa müəllifə məxsus fikrin (cümlə və ya mətnin bir hissəsi) heç bir dəyişiklik edilmədən, olduğu kimi istifadə olunmasıdır. Bu halda sitat gətirilən hissə dırnaq işarələri (“…”) daxilində təqdim olunmalıdır. Birbaşa istinad istifadə edərkən mütləq səhifə nömrəsi də göstərilməlidir.

**Nümunələr:**

- Müəllif iddia edir ki, “tədris planının mahiyyət və mənasını başa düşməklə, hər bir uşağın problemini daha yaxşı anlaya bilərik” (Clough, 1988, səh.327).

- Freud (1960) noted that “one day, in retrospect, the years of struggle will strike you as the most beautiful” (p.258).

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

- Əgər birbaşa sitat gətirilən mətn **40 və ya daha çox sözdən ibarətdirsə**, o, **blok sitat** şəklində yazılmalıdır:

- As Ellis (2010) noted:

> You have considerable power to construct self-helping thoughts, feelings and actions as well as to construct self- defeating behaviors. You have the ability, if you use it, to choose healthy instead of unhealthy thinking, feeling and acting (p. 49).

- Vygotsky (1978) qeyd edir:

> Öyrənmə prosesi yalnız fərdi fəaliyyətlə məhdudlaşmır, əksinə, sosial qarşılıqlı əlaqələr vasitəsilə formalaşır və inkişaf edir. Uşaqlar daha təcrübəli fərdlərlə ünsiyyət qurduqca, onların düşünmə bacarıqları tədricən inkişaf edir və daha mürəkkəb səviyyəyə çatır. Bu proses onların idrak inkişafında mühüm rol oynayır (s. 86).

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

Mətn daxilində **tək müəllifli** mənbələrə aşağıdakı qaydada istinad olunur:

- ***Cümlənin əvvəlində:*** Tarhan (2021) qeyd edir ki, …….
- ***Cümlənin sonunda:*** ……... bənzər davranışlar nümayiş etdirdikləri qeyd olunmuşdur (Tarhan, 2021).

- ***Cümlənin əvvəlində:*** Tarhan (2021) explained that …….
- ***Cümlənin sonunda:*** ……... it has been noted that they exhibited similar behaviors (Tarhan, 2021).

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

Mətn daxilində **iki müəllifli** mənbələrə aşağıdakı qaydada istinad olunur:

- ***Cümlənin əvvəlində:*** *Berkovich və Gueta (2021) qeyd edir ki, …….*
- ***Cümlənin sonunda:*** *……… qeyd olunmuşdur* (Berkovich və Gueta, 2020). Və ya (Berkovich & Gueta, 2020)**.**

- ***Cümlənin əvvəlində:*** Berkovich və Gueta (2021) concluded that …….
- ***Cümlənin sonunda:*** ……… leadership plays a key role in school development (Berkovich and Gueta, 2020) və ya (Berkovich & Gueta, 2020).

**Üç və ya daha çox müəllifi olan bir tədqiqata istinad edərkən, yalnız birinci müəllifin soyadı yazılır, ardından "digərləri" və il qeyd olunur:**

**İSTİFADƏ FORMALARI**

**1** Müəllif 1-in soyadı və digərləri (il) müəyyən etmişdir ki ...

**və ya**

**2** ..... (Müəllif 1-in soyadı və digərləri, il)

**NÜMUNƏLƏR**

**Kərimov və digərləri (2022)** qeyd etmişdir ki...

............. **(Kərimov və dig., 2022)**

**1) In-text citation within a sentence**

Author(s) — Year

**Trundle *et al.* (2002)** concluded that...

Author 1's surname + *et al.* — (Year of publication)

**2) In-text citation in parentheses**

Author(s) — Year

**(Trundle *et al.*, 2002)**

Author 1's surname + *et al.* — (Year of publication)

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

- Bənzər/eyni soyadlı müəlliflərin əsərlərinə istinad edərkən müəllifin sayı üçü keçsə belə fərqli olan hissəyə qədər bütün müəlliflərin soyadları qeyd olunmalıdır.

- **Nümunə:** **İstinad qaydası:**

- *Miller, Fairfield, Clark, Harris and Lieberman (2020)* *Miller, Fairfield, Clark, et al. (2020)*
- *Miller, Fairfield, Masten and Lieberman (2020)* *Miller, Fairfield, Masten, et al. (2020)*

# *APA 7 mətndaxili istinad göstərmə qaydaları*

- ***Fərqli mənbələrin ilk müəlliflərinin soyadı eyni olarsa, bu zaman bütün mətndaxili istinadlarda ilk müəlliflərin soyadı ilə bərabər adlarının baş hərfləri də verilməlidir.***
- (S. Williams, 2019)
- (T. Williams, 2004)

- ***Əgər 2 müəllifli mənbədə hər iki müəllifin soyadı eynidirsə, mətn daxilində istinad verərkən onların adlarının baş hərflərini yazmağa ehtiyac yoxdur.***
- (Taylor & Taylor, 2020)



# APA 7 mətndaxili istinad göstərmə qaydaları

Bəzi hallarda tədqiqatçı ilkin (orijinal) mənbəyə birbaşa çıxış əldə edə bilmir və həmin mənbə ilə başqa bir müəllifin əsəri vasitəsilə tanış olur. Bu zaman **ikincil istinad (secondary citation)** istifadə olunur.

**Mətn daxilində istinad:**

- Orijinal müəllifin soyadı və nəşr ili qeyd edilir, daha sonra “as cited in” ifadəsi ilə istifadə olunan ikinci mənbə göstərilir:

***Nümunə:***

(Freud, 1901, as cited in Bonomi, 1998)  və ya

(Freud, 1901, Bonomi, 1998-də istinad edildiyi kimi)

**Ədəbiyyat siyahısı (References):**

- Yalnız **istifadə edilən ikinci mənbə** qeyd olunur: Bonomi, A. (1998)....



# APA 7 mətndaxili istinad göstərmə qaydaları

- **Abreviaturası olan mənbə**

Abreviaturası (qısaltması) olan təşkilat sənədləri üçün istinad qaydası belədir:

Mənbə ilk dəfə mətn daxilində istifadə olunduqda təşkilatın tam adı yazılır və onun yanında kvadrat mötərizədə qısaltması verilir (məsələn, *World Health Organisation [WHO], 2020*). Bundan sonra eyni mənbəyə edilən bütün istinadlarda qısaltma istifadə olunur (məsələn, *WHO, 2020*).



# APA 7 mətndaxili istinad göstərmə qaydaları

- **Bir mənbəyə aid eyni ildə nəşr olunmuş məlumata** istinad edərkən *"a", "b"*-dən istifadə olunmalıdır.

*Nümunə:* (WHO, 2020a), (WHO, 2020b).

## ***Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları***

# ***Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları***

## Məqaləyə istinad

### Nümunə 1




### Nümunə 2



# ***Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları***

**Məqaləyə istinad**

**Nümunə**



# Kitaba istinad

- **Ədəbiyyat siyahısında (References) *kitaba* istinad qaydaları**
- Müəllif(lər), (il), *kitabın adı (italics)*, nəşriyyat, DOI (əgər varsa).
- **Nümunə:**
- Miller, A. J., Thomson, F., & Callagher, D. (1998). *Affluence in suburbia*. BL Books.
- Əliyev, R. (2020). *Şəhər inkişafı və cəmiyyət*. Elm nəşriyyatı.

# Veb-səhifəyə istinad

- **Ədəbiyyat siyahısında (References) *veb-səhifəyə* istinad qaydaları**
- Müəllif(lər)in soyadı, adının baş hərfi. (İlin günü, ayı). *Mətnin adı (italics)*. Veb-səhifənin adı. URL

- **Nümunə:**
- Avramova, N. (2019, January 3). *The secret to a long, happy, healthy life? Think age-positive*. CNN. https://edition.cnn.com/2019/01/03/health/respect-toward-elderly-leads-to-long-life-intl/index.html

- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi. (2026, 28 yanvar). *Respublika fənn olimpiadaları*. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi. https://edu.gov.az/olimpiada-ve-musabiqeler/respublika-fenn-olimpiadalari

# Dissertasiyalara istinad

**Ədəbiyyat siyahısında (References) dissertasiyaya istinad qaydaları**

Harris, L. (2014). *Instructional leadership perceptions and practices of elementary school leaders* [Unpublished doctoral dissertation]. University of Virginia.

**Qeyd:** Əgər dissertasiya **rəsmi olaraq nəşr edilməyibsə**, yəni kitab kimi çap olunmayıb, elmi jurnalda dərc edilməyib, və ya açıq onlayn bazalarda (məsələn, ProQuest kimi bazalarda) yayımlanmayıbsa, bu halda istinadda dissertasiyanın növü **“unpublished doctoral dissertation”** kimi göstərilir.

# *Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları*

- **Eyni müəllifin bir neçə əsərinə istinad olunubsa, ili daha əvvəl olan öncə yazılır.**


- Cruise, T. (2021). Effects of collaborative learning on student achievement in secondary schools. *Journal of Educational Psychology Research, 12*(4), 145–158. https://doi.org/10.1037/edp0000123
- Cruise, T. (2025). Impact of digital technologies on classroom engagement in higher education. *International Journal of Learning and Instruction, 9*(2), 99–110. https://doi.org/10.1037/ili0000456


- **Eyni müəllifə birdən çox istinad olunubsa və bəzi nəşrlərdə fərqli müəlliflər də varsa, o zaman öncə tək müəllifin soyadı qeyd olunur.**


- Marcus, K. (2003). The role of motivation in academic performance among university students. *Journal of Educational Studies, 11*(3), 201–215. https://doi.org/10.1037/jes0000345
- Marcus, K., Allain, D., & Espan, S. (1998). Cooperative learning strategies and student achievement in secondary education. *Educational Research Quarterly, 22*(1), 45–58. https://doi.org/10.1037/erq0000128

# *Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları*

**İstinad olunan ilk müəllif eynidirsə və 2-ci və 3-cü müəllif dəyişirsə, ikinci müəllifin soyadına görə əlifba sırası ilə qeyd olunur.**

- Glodbing, D. (1998). The influence of instructional design on student learning outcomes in primary education. *Journal of Curriculum Studies, 30*(2), 155–168. https://doi.org/10.1037/jcs0000198
- Glodbing, D., & Carlson, S. (2004). Classroom interaction patterns and academic achievement in secondary schools. *Teaching and Teacher Education, 20*(5), 423–437. https://doi.org/10.1037/tte0000234
- Glodbing, D., & Freit, S. (2003). Assessment methods and student performance in standardized testing environments. *Assessment in Education: Principles, Policy & Practice, 10*(3), 301–315. https://doi.org/10.1037/aie0000176

**Ədəbiyyat siyahısında təşkilatların adlarının qısaltması verilməməlidir, təşkilat adları tam halda yazılmalıdır.**

- World Health Organization. (2025). Global report on neglected tropical diseases. https://iris.who.int/server/api/core/bitstreams/9c4655d8-3671-4503-ae51-4a80bb44d5e0/content

# *Ədəbiyyat siyahısında (References) APA 7 istinad qaydaları*

***Fərqli dillərdəki məqalələrdən istifadə:***

- Ədəbiyyat siyahısında mənbənin adı yazılarkən **orijinal dildən** istifadə edilir (məsələn, ispan dili); Lakin məqalənin başlığından sonra kvadrat mötərizə açılmaqla tədqiqatın adı ingilis dilində təqdim olunur.
- Kitab fəsillərində yalnız istinad edilən kitab fəslinin adının tərcüməsi kvadrat mötərizədə verilir, əsas kitab adının tərcüməsi verilmir.

# APA 7 istinad göstərmə qaydaları (mətndaxili və ədəbiyyat siyahısı)

- Mətn daxilində üç və daha artıq müəllifi olan mənbələrə istinad edilərkən yalnız birinci müəllifin soyadı göstərilir və ardınca “və digərləri” (*et al.*) ifadəsi əlavə olunur.

- Ədəbiyyat siyahısında **iyirmiyə qədər** müəllifdən ibarət tədqiqatlarda bütün müəlliflərin soyadının qeyd olunması zəruridir.

# APA 7 istinad göstərmə qaydaları (mətndaxili və ədəbiyyat siyahısı)

Mətn daxilində hər hansı bir fikrə dair bir neçə müəllifə istinad olunarsa, sıralama əlifba sırasına uyğun aparılır.

***Nümunə:***

- ............ bu barədə həmfikirdirlər (Abaslı, 2013; Babayev, 2018; Əliyeva, 2015; Rəsulov, 2021).

İstifadə olunmuş ədəbiyyatların siyahısı bölməsində də sıralama müəlliflərin soyadına uyğun olaraq əlifba sırasına görə müəyyən olunur.

***Nümunə:***

Brown, T. (2018). Educational leadership and management...
Johnson, A. (2020). Learning theories in education....
Smith, J. (2015). Introduction to educational psychology....